ŞƏFFAFLIQ AZƏRBAYCAN

*Azərbaycan, Bakı.*
*Balaba Məcidov küç.,51*
*E-mail: alimammad@transparency.az*

*Tel: (+99412) 5951547*
*Mobil: (+99450) 2232929*
*https://transparency.az/*

**“Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022─2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə əlaqədar təkliflər**

Azərabcyan, Bakı

“Şəffaflıq Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi 2004-cü ildən başlayaraq korrupsiyaya qarşı mübarizə sahəsində 1 Dövlət Proqramı, 1 milli strategiya, 5 milli fəaliyyət planı qəbul edilməsini yüksək qiymətləndirir və kompleks tədbirləri özündə cəmləşdirən bu sənədlərin əhəmiyyətli töhfəsini qeyd edir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə qəbul edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın korrupsiyaya qarşı mübarizədə güclü potensialının olmasını qeyd etməklə uğurlu nəticələr üçün effektiv icranın zəruri şərt olduğunu vurğulayır. Sənəddə 6 prioritet və hər biri ilkin, aralıq və yekun nəticə mərhələlərinə bölünən 62 vəzifə müəyyən edilmişdir.

**“Şəffaflıq Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə İB aşağıdakı təklifləri diqqətə çatdırır:**

- Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın 1 illik icrasının müstəqil monitorinqi üçün tədbilər həayata keçirsin;
- “Şəffaflıq Azərbaycan”ın ilkin qiymətləndirməsi göstərir ki, icraı 2023-cü ildə başa çatdırılması nəzərdə tutulan 8 tədbirdən yalnı biri tam şəkildə icra edilib. Digər iki tədbir qismən, 5 tədbir əsasən icra edilib. Komissiya özünün monitorinqinə əsasən icrası geciksən tədbiləri nəzarətə götürsün və icrasının təmin edilməsinə nail olsun. Bu ləngimələr icradaı dinamikanı zəiflədir.
- Milli Fəlaiyyət Planının icrası ilə əlaqədar ictimai iştirakçılığın artırılması üzrə təbilər həyata keçirilsin. İndiki vəziyyətdə iştirakçılığın səviyyəsi qənaətbəş deyil və QHT-lər daha çox müzakirələrə cəlb edilməlidir.
- Əvvəki Milli Fəaliyyət Planlarına slaınmış, lakin icra edilməmiş tədbilər xüsusi nəzarətə götürülsün və icrasının başa çatdırılması üçün əlavə səylər göstərilsin.
- İctimai maraq doğuran tədbilər, məsələn elektron xidmətlər, vəzifəli şəslərin gəlir dekalarasiyaları, maraqlar toqquşması, benefisiar sahibkarlıqla bağlı qanunvericliyin təkmilləşdirilməsi kimi tədbilər xüsusi diqqətə götürülsün və icrası vaxtında həyata keçirilməsi üçün əlavə səylər göstərilsin.
- İcraçı qurumlar arasında əlaqələndirmə gücləndirilsin.